1_Layout 1 13.04.2020 18:53 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 7 (573)

15 aprel 2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## PREZİDENT İLHAM ƏLİYEVİN TƏŞƏBBÜSÜ İLƏ TÜRK ŞURASININ VİDEOKONFRANS VASİTƏSİLƏ FÖVQƏLADƏ ZİRVƏ GÖRÜŞÜ KEÇİRİLİB

**Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib.**

**AZƏRTAC xəbər verir ki, Zirvə görüşü koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunub.**



Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru.

Əziz dostlar.

Mən sizin hamınızı səmimiyyətlə salamlayıram. Azərbaycanın sədr ölkə kimi irəli sürdüyü Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünü dəstəklədiyiniz üçün təşəkkürümü bildirirəm. Bu təşəbbüsün irəli sürülməsindən bir neçə gün sonra Zirvə görüşünün təşkili göstərir ki, Türk Şurası dostluq və qardaşlıq təməlləri əsasında qurulubdur.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesusa Zirvə görüşünə qoşulduğuna görə minnətdarlığımı bildirirəm.

Zirvə görüşünün gündəliyi təqdim olunmuşdur. Gündəliklə bağlı hər hansı təklifiniz yoxdursa, işimizə başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü Bakıda keçirildi. Azərbaycan bu Zirvə görüşündə sədrliyi öz üzərinə götürdü. Dərhal Azərbaycan sədr ölkə kimi fəaliyyətə başladı. Sədrlik etdiyimiz dövrdə dünyada təşkilatın nüfuzunun daha da artırılması, ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində səylər göstəririk.

Koronavirus xəstəliyi sərhəd tanımayaraq dünya boyunca yayılmış və faciəvi nəticələrə gətirib çıxarmışdır. Pandemiya səbəbindən ölkələrimizdə və dünyada həyatını itirənlərə rəhmət diləyir, onların yaxınlarına başsağlığı verir və yoluxanların tezliklə şəfa tapmasını arzulayıram.

Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində COVID-19 pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirir. Bu, bizim nümunəvi səviyyədə olan həmrəyliyimizin növbəti bariz təzahürüdür. Bizi birləşdirən ortaq soykök, tarix, mədəniyyət və milli dəyərlər qarşılıqlı səmərəli fəaliyyətimiz üçün mühüm əsasdır.

Koronavirus pandemiyası qlobal təhlükə olduğu üçün qlobal cavab tələb edir. Pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi oluruq. Pandemiyanın dünyanı bürüdüyü indiki şəraitdə dünyanın həmrəyliyə və əməkdaşlığa ehtiyacı vardır.

Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün çevik və zəruri qabaqlayıcı addımlar atmışdır. Məhdudlaşdırıcı tədbirlər yaranmış şəraitə uyğun aparılmışdır. Mənim Sərəncamımla bu ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə aprelin 20-dək dayandırılmışdır. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir. Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırılmış, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edilmişdir. Şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırılmışdır. Aprelin 5-dən etibarən ölkədə hərəkət məhdudiyyəti tətbiq olunur. Bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün digər vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verilir.

Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Biz mart ayının əvvəlində təşkilatın mütəxəssislərini Azərbaycana dəvət etmişik. Qısa müddətdə dəvətimizə cavab verilmişdir. Belə ki, 9-13 mart tarixlərində təşkilatın aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə olmuşdur. Onlar ölkəmizdə vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət vermişlər. Ekspert missiyasının hazırladığı hesabatda da öz əksini tapmış tövsiyələr aidiyyəti dövlət qurumları tərəfindən nəzərə alınır.

Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, doktor Tedros Adhanom Qebreyesus tərəfindən mart ayının 23-də mənə ünvanlanmış məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir.

Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır. Azərbaycan qlobal həmrəylik nümayiş etdirərək koronavirusa qarşı mübarizədə Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır. Mart ayının 13-də Azərbaycan tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının strateji hazırlıq və cavab planı çərçivəsində COVID-19 müraciəti Fonduna könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutan donor sazişi imzalanmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatının pandemiyaya qarşı qlobal mübarizədə oynadığı mühüm rolu yüksək qiymətləndiririk.

On altı il ərzində Azərbaycanın səhiyyə sistemində köklü işlər görülmüşdür, həkimlərin peşəkarlıq səviyyəsi yüksəlmişdir, 750-dən çox səhiyyə ocağı tikilmiş və ya tam təmir olunmuşdur. Hər il Azərbaycanda 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir.

Koronavirus xəstələri 20-dən artıq dövlət xəstəxanasında müalicə olunurlar. Bu günlərdə 575 çarpayıdan ibarət olan, ölkəmizin ən müasir və "Yeni klinika" adlanan xəstəxanası onların ixtiyarına verilmişdir. Bu ilin mart ayında ölkəmizin 3 şəhərində üç yeni xəstəxana istifadəyə verilmişdir. Onların ümumi çarpayı sayı 500-dən çoxdur. Bu xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verilmişdir. Qısa müddət ərzində 6-sı dövlət, 4-ü isə özəl sahibkarlar tərəfindən tikilməklə, hər birinin 200 çarpayı yeri olan 10 müasir modul tipli xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulur.

Həkimlərimizin və tibb işçilərimizin koronavirus xəstəliyinə qarşı mübarizədə xidmətlərini yüksək qiymətləndiririk. Koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşı 3, 4 və 5 misli məbləğində artırılıb. Bu, dövlət tərəfindən həkimlərə göstərilən qayğının təzahürüdür.

On beş mindən artıq Azərbaycan vətəndaşı müxtəlif ölkələrdən, o cümlədən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə təxliyə edilmişdir. Ölkəyə qaytarılmış bütün vətəndaşlarımız dövlət hesabına 4 və 5 ulduzlu mehmanxanalarda, xüsusi karantin zonalarında yerləşdirilmişdir. Eyni zamanda, birinci Avropa Oyunları zamanı açılmış Atletlər kəndində də karantinə alınmış şəxslər yerləşdirilir.

Beynəlxalq ticarət daşımaları istisna olmaqla, qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində qonşu dövlətlərlə yerüstü və hava nəqliyyatı bağlantıları müvəqqəti olaraq dayandırılmışdır. Digər ölkələrlə beynəlxalq hava sərnişin daşımaları da dayandırılmışdır.

İndiyə kimi ölkə üzrə 60 minə yaxın test keçirilmişdir. Əhalinin hər bir milyon nəfərinə düşən testin sayı 5200-dən artıqdır. Aparılan testlərin sayına görə dünyada 30-cu, hər milyon əhaliyə görə aparılan testlərin sayına görə 40-cı yerlərdəyik. Azərbaycanda testlərin aparılması üçün 18 laboratoriya fəaliyyət göstərir, onların 5-i yeni yaradılmışdır.

Hazırda dünyada tibbi ləvazimatların və avadanlıqların alınması problemə çevrilmişdir. İstehsal olunan avadanlıqlar və ləvazimatların satılması dövlətlər tərəfindən məhdudlaşdırılmışdır. Ona görə də daxili istehsal ehtiyacı yaranmışdır. Daxili tələbatı ödəmək üçün aprel ayının əvvəlində ölkəmizdə operativ şəkildə tibbi maska istehsalı müəssisəsi fəaliyyətə başlamışdır.

Mənim təşəbbüsümlə Azərbaycanda Koronavirusla Mübarizəyə Dəstək Fondu təsis edilmişdir. Hazırda bu fonda köçürülmüş ianələrin həcmi 110 milyon manatdan və ya 65 milyon dollardan artıqdır. Dövlət vəsaiti ilə bərabər, ayrı-ayrı şəxslərin, sahibkarların və təşkilatların fonda könüllü ianəsi həm də böyük rəmzi məna daşıyır. Bu, Azərbaycan cəmiyyətində olan həmrəyliyin nümunəsidir.

Sirr deyil ki, koronavirus pandemiyası dünya ölkələrinin iqtisadiyyatına zərbə vurmuşdur. Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və həm də makroiqtisadi və maliyyə vəziyyətimizi sabit saxlamaq üçün 2,5 milyard manat və ya təqribən 1,5 milyard dollar vəsait ayrılmışdır. Pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə Nazirlər Kabineti Tədbirlər Planı hazırlamış və təsdiq etmişdir. Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, görərik ki, 600 minə yaxın insan bu vəziyyətdən daha çox əziyyət çəkir. Sahibkarlara müraciət olunmuşdur ki, iş yerləri ixtisar edilməsin. Qırx dörd min sahibkarlıq subyektində çalışan 300 mindən çox işçinin əməkhaqqının əhəmiyyətli bir hissəsini dövlət ödəyəcək. Həmçinin, dövlət dəstəyindən 290 mindən çox mikro və fərdi sahibkar faydalanacaqdır. Bu proqramlar, ümumilikdə, 600 minə yaxın insanı əhatə edir. Ümumilikdə, dövlət sektoru üzrə 900 mindən artıq işçinin, qeyri-dövlət sektoru üzrə isə 690 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilmişdir. İşsiz şəxslərin sosial müdafiəsi üçün 50 min ödənişli ictimai iş yeri yaradılacaqdır. Qeydiyyata düşmüş işsizlər üçün birdəfəlik ödəmələrə başlanmışdır. Banklar tərəfindən sahibkarlara yeni verilən 500 milyon manat və ya təqribən 300 milyon dollar həcmində kreditlərin 60 faizinə dövlət zəmanəti veriləcəkdir. Zəmanət verilən kreditlər üzrə faiz dərəcəsinin yarısı dövlət büdcəsinin vəsaitləri hesabına subsidiyalaşdırılacaqdır. Dövlət zəmanəti olmayan 1 milyard manat, təqribən 600 milyon dollar həcmində mövcud bank kreditləri üzrə faiz dərəcəsinin 10 faiz bəndi subsidiyalaşdırılacaqdır. Bunun üçün dövlət büdcəsindən 50 milyon manat və ya təqribən 30 milyon dollar vəsait ayrılmışdır. Bu tədbirin əsas məqsədi pandemiya səbəbindən faizlərin ödənilməsində çətinliklərlə üzləşmiş sahibkarlara kömək etməkdir. Sosial təcrid tədbirləri nəticəsində əhali tərəfindən elektrik enerjisi sərfi artmışdır. Bunu nəzərə alaraq kommunal ödəmələrə güzəşt edilmişdir. Bu proqramlar dövlətin dəstəyinin yalnız bir hissəsidir və digər dövlət dəstəyi mexanizmləri üzərində hazırda iş aparılır.

Hörmətli dostlar, hesab edirəm ki, bugünkü fövqəladə Zirvə görüşünün əsas məqsədi milli səviyyədə atdığımız addımlara dair təcrübə mübadiləsinin aparılması, lazım olan anda bir-birimizə dəstək göstərilməsi və xalqlarımız arasında həmrəyliyin möhkəmləndirilməsidir. Mövcud qlobal pandemiya şəraitində Türk Şurasının üzv dövlətləri özlərinə qapanmayıblar. Təşkilat olaraq Türk Şurası digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırdır. Azərbaycan ayrı-ayrı ölkələrə də öz dəstəyini göstərməkdədir.

Ölkələrimizin iqtisadiyyatı, ticarət münasibətlərimiz və idxal-ixrac əməliyyatları üçün nəqliyyat daşımaları mühüm əhəmiyyətə malikdir. Azərbaycan Türkiyə və Mərkəzi Asiya arasında etibarlı tranzit-logistika mərkəzi kimi öz roluna məsuliyyətlə yanaşaraq, tranzit yüklərin daşınması üçün əlavə tədbirlər görmüşdür. Qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində ölkələrimiz arasında beynəlxalq yükdaşımaları fasiləsiz olaraq həyata keçirilir. Pandemiyanın mənfi təsirlərinə baxmayaraq, 2020-ci ilin ilk üç ayı ərzində türkdilli ölkələrdən 180 min tondan artıq yük Azərbaycan vasitəsilə daşınmışdır ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40 min ton çoxdur.

Səhiyyə xidmətləri sahəsində əməkdaşlığımız, o cümlədən tibb mütəxəssislərinin təcrübə mübadiləsi, birgə tibbi komissiyaların yaradılması üçün yaxşı imkanlar vardır. Bundan əlavə, sərnişin nəqliyyat daşımalarının müvəqqəti bağlanmasına görə ölkələrimizin ərazisində qalan bir-birimizin vətəndaşlarına dəstək və yardım göstərməyimiz vacibdir. Bizim gördüyümüz bu tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunması və pandemiyanın doğurduğu sosial-iqtisadi fəsadların yüngülləşdirilməsi, iqtisadiyyatlarımızın davamlı inkişafının təmin edilməsi məqsədi daşıyır. Ümid edirəm ki, ölkələrimiz və xalqlarımız bu ağır vəziyyətin öhdəsindən layiqincə gələcək və pandemiyaya qarşı qlobal mübarizəyə öz layiqli töhfəsini verəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sonra Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Macarıstanın Baş Naziri Viktor Orban, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev çıxış etdilər.**

**Zirvə görüşünün yekununda bir daha çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

- Təşəkkür edirəm, cənab Baş katib.

Hesab edirəm ki, çıxışlarda səslənən bütün təkliflər katiblik tərəfindən qeydə alınsın və ümumiləşdirilib, bütün ölkələrə razılaşdırma üçün təqdim edilsin. Əminəm ki, bu dəyərli təkliflər nəzərə alınacaqdır. Beləliklə, biz əməkdaşlığımızın növbəti mərhələsini uğurla davam etdirərək və koronavirusla mübarizədə birlik göstərərək bu bəlaya qalib gələcəyik.

Əziz qardaşlarımdan soruşmaq istərdim, əlavə hansısa məsələlər, suallar, təkliflər varsa, xahiş edirəm bildirin.

Əgər yoxdursa, onda icazə verin, mən yekun sözümü söyləyim və ondan sonra Bəyannamənin qəbul edilməsi nəzərdə tutulur.

- Hörmətli dostlar.

Bir daha əziz qardaşlarıma bizim təşəbbüsümüzü qəbul etdiklərinə və Zirvə görüşündə iştirak etdiklərinə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu gün çıxışlarda səslənən dəyərli fikirlər və təkliflər koronavirus xəstəliyinə qarşı bizim birgə mübarizəmizi daha da gücləndirəcəkdir. Eyni zamanda, bu xəstəliyin mənfi təsirlərinin aradan qaldırılması üçün pandemiyadan sonrakı dövrdə iqtisadiyyat, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlıq üzrə səylərimizi daha da artırmağımız zəruridir.

Bizim həmrəyliyimiz və birliyimiz nümunəvi xarakter daşıyır. Bu, onu göstərir ki, biz yalnız xoş günlərdə deyil, çətin günlərdə də bir-birimizin yanındayıq. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq böyük önəm daşıyır. Biz digər beynəlxalq təşkilatlarla əməkdaşlığa hazırıq. Hesab edirəm ki, Zirvə görüşünün Yekun Bəyannaməsi bu əməkdaşlığa əhəmiyyətli töhfədir.

Hörmətli həmkarlar, ümidvaram ki, koronavirusla mübarizədə qalib gələcəyik və bu ağır vəziyyətdən az itkilərlə çıxacağıq. İndi isə gündəlikdə Bəyannamənin qəbul edilməsi durur. Bəyannamənin mətni razılaşdırılıb və beləliklə, Bəyannamə qəbul edildi.

Əziz dostlar, bir daha Zirvə görüşündə fəal iştirakınıza görə təşəkkürümü bildirirəm və Zirvə görüşünü bağlı elan edirəm. Sağ olun.

2_Layout 1 14.04.2020 11:04 Page 1



# XÜSUSİ KARANTİN-REJİM TƏDBİRLƏRİNİN TƏMİN OLUNMASI DÖVLƏT ƏHƏMİYYƏTLİ VƏZİFƏDİR

## *Ölkə ictimaiyyəti xalqımızın sağlamlığı və təhlükəsizliyi naminə polis əməkdaşları və hərbi qulluqçularımızın əzmkar xidmətini yüksək dəyərləndirir*



**Bu gün dünya ölkələrini çətin sınaqlarla üz-üzə qoyan koronavirus (COVID-19) pandemiyası səbəbindən insanların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması ən vacib məsələ kimi hamılıqla qəbul olunur. Artıq ayrı-ayrı dövlətlərdə koronavirusa yoluxma halları sürətlə artır və onların səhiyyə sistemi bu ekstremal vəziyyətin öhdəsindən gələ bilmir. Hətta dünyanın qabaqcıl ölkələrində koronavirus infeksiyası ağır fəsadlar törədib.**

Ötən ilin son ayında Çindən başlayaraq dünyaya yayılan koronavirusun mənşəyi hələlik məlum deyil, lakin ona qarşı peyvəndin hazırlanması üzrə müəyyən işlər görülür. Buna görə də infeksiya əleyhinə ciddi profilaktik tədbirlərin görülməsi, xüsusi karantin rejiminin tətbiq olunması pandemiya ilə mübarizədə həyati əhəmiyyət kəsb edir.

**Ümumdünya Səhiyyə Təşkilatının koronavirus pandemiyası ilə bağlı müəyyən etdiyi qaydalara və beynəlxalq aləmə ünvanladığı tövsiyələrə çevik reaksiya verən, bunları təxirə salınmadan həyata keçirən ölkələrdən biri də Azərbaycandır.**

Respublikamızın yaxın qonşusu olan ölkələrdə koronavirus infeksiyasının yayılması,



COVID-19 diaqnozu qoyulan xəstələrin çoxalması da nəzərə alınaraq, Azərbaycanda xüsusi karantin-rejim tədbirlərinin icrasına başlanılıb. Pandemiyaya qarşı mübarizə məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb. Operativ Qərargah tərəfindən bu məsələdə dövlət qurumlarının fəaliyyəti uzlaşdırılır və epidemik vəziyyət barədə ölkə ictimaiyyətinə müntəzəm məlumatlar verilir. Ümumilikdə, respublikamızın sərhədkeçid məntəqələri bağlanıb, şəhər və rayonlarımız arasında gediş-gəliş məhdudlaşdırılıb, müxtəlif təyinatlı müəssisələrin, təhsil, mədəniyyət və ictimai iaşə obyektlərinin işinə fasilə verilib, kütləvi tədbirlər, mərasimlər təxirə salınıb, 65 yaşdan yuxarı vətəndaşların



evdən çıxmasına qadağa qoyulub, digər kateqoriyadan olan vətəndaşlar üçün icazəli evdən çıxma rejimi qüvvədədir. “Evdə qal” kampaniyası bütün cəmiyyətimizdə geniş vüsət alıb.

Bundan əlavə, ictimai nəqliyyatın işi də xüsusi karantin-rejim tədbirlərinə uyğunlaşdırılıb. Bakı Metropoliteninin fəaliyyəti müvəqqəti dayandırılıb. Paytaxtımızda çevik qrafiklə hərəkət edən ekspress avtobuslar marşruta buraxılıb.

Koronavirusa yoluxmuş şəxslərin müalicəsi üçün xüsusi xəstəxanalar müəyyən edilib. Səhiyyə ocaqları, gigiyena və epidemiologiya qurumları koronavirus əleyhinə tədbirlərin görülməsinə səfərbər olunub.

Xüsusi karantin rejimi şəraitində hərbi hissələrdə valideynlərlə görüşlər, hərbi qulluqçuların məzuniyyətə buraxılması müvəqqəti olaraq dayandırılsa da, hərbi hissələrin ərazisində quraşdırılmış telefon aparatları vasitəsilə müddətli həqiqi hərbi xidmət çavuş və əsgərləri ailələrinə zəng etmək imkanına malikdirlər.

Daxili Qoşunlar formalaşdığı və inkişaf edərək peşəkar hərbi quruma çevrildiyi ötən 28 ildən çox müddətdə xidməti vəzifələrindən irəli gələn çoxşaxəli fəaliyyət üzrə zəngin təcrübə toplayıb. Bu təcrübə şəxsi heyət tərəfindən müxtəlif tapşırıqların uğurla yerinə yetirilməsi nöqteyi-nəzərdən çox qiymətlidir.

Hazırda Daxili Qoşunların şəxsi heyəti xidməti fəaliyyətində ilk dəfədir belə bir təhlükəli virus xəstəliyinin yayılması əleyhinə xüsusi karantin-rejim tədbirlərinin təmin olunmasında iştirak edir. Bu vəzifənin öz xüsusiyyətləri və çətinlikləri var. Əsas məqam odur ki, Daxili Qoşunlar ekstremal vəziyyətlərə, fövqəladə hallara daha hazırlıqlı qurumlardan biridir. Belə bir hazırlıq uzun illər ərzində, böyük zəhmət hesabına formalaşıb. Mövcud maddi-texniki potensial və digər qurumlarla uzlaşdırılmış fəaliyyət təcrübəsi də genişhəcmli və mürəkkəb xarakterli tapşırıqların peşəkarlıqla yerinə yetirilməsinə imkan verir.




**Koronavirus infeksiyasının ölkədə yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması və xüsusi karantin rejiminin tələblərindən irəli gələn vəzifələrin icrasının təmin olunmasına polis əməkdaşları ilə birgə Daxili Qoşunların şəxsi heyəti də cəlb edilmişdir. Belə bir mühüm vəzifənin onlara həvalə olunması müvafiq qanunvericiliyin tələblərindən irəli gəlir. Onu da qeyd etmək vacibdir ki, “Daxili Qoşunların statusu haqqında” Qanunda Daxili Qoşunların hərbi qulluqçularının fövqəladə hallarda fəaliyyəti nəzərdə tutulub. Koronavirus pandemiyası da fövqəladə hal kimi xarakterizə olunur.**





Hərbi qulluqçularımız polis əməkdaşları ilə birgə şəhər və rayonlararası yollarda buraxılış rejiminə nəzarət edir, xüsusi səhiyyə müəssisələrinin mühafizəsində dayanır, yaşayış məntəqələrində karantin-rejim tədbirlərinin təmin olunması üzrə fəaliyyət göstərirlər. Onlar zəruri qoruyucu vasitələrlə təmin olunublar. Şəxsi heyət qarşıya qoyulan tapşırıqların məsuliyyətini düzgün dərk edir, karantin-rejim tədbirlərinə aid təlimatları dəqiq yerinə yetirir, vətəndaşlara münasibətdə etik davranış göstərir, belə çətin vəziyyətdə nümunəvi xidmətlə qoşunlar haqqında müsbət rəy yaradır. Ölkə ictimaiyyəti polis əməkdaşları və hərbi qulluqçularımızın əhalinin sağlamlığı və təhlükəsizliyi naminə əzmkar xidmətini yüksək dəyərləndirir.






**Daxili Qoşunların Baş İdarəsi və hərbi hissələrində, hərbi qulluqçularımız və onların ailələrinin yaşadıqları yataqxana komplekslərində koronavirus infeksiyası barədə maarifləndirmə işi, tibbi-profilaktik tədbirlər də xüsusi diqqət mərkəzində saxlanılır. Hərbi şəhərciklər, əsgər kazarmaları, yeməkxanalar, hamam-camaşırxana kompleksləri və digər xidməti obyektlərdə lazımi dezinfeksiya işləri də müntəzəm olaraq aparılır.**

**İnanırıq ki, xalqımız Respublika Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşərək, öz iradəsini və birliyini nümayiş etdirərək, üzləşdiyi bu sınaqdan da alnıaçıq çıxacaq, tezliklə koronavirus xəstəliyi təhlükəsi sovuşacaq və onun fəsadları güclü dövlətimiz tərəfindən aradan qaldırılacaq, beləliklə, həyatımız öz normal axarına qayıdacaq.**

**Yalçın Abbasov**

3_Layout 1 13.04.2020 19:02 Page 1



# "GÖSTƏRİLƏN DİQQƏT VƏ QAYĞI ŞƏXSİ HEYƏTİN MƏSULİYYƏTİNİ ARTIRIR, ONLARI NÜMUNƏVİ XİDMƏTƏ RUHLANDIRIR"

**Daxili Qoşunların 16077 saylı hərbi hissəsində xidmətin yüksək səviyyədə təşkil olunub aparılması üçün hər bir şərait yaradılıb. Hərbi şəhərcikdə aparılan abadlıq və yenidənqurma işləri hərbi qulluqçuları qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirməyə ruhlandırır.**

Hərbi hissənin şəxsi heyəti regionda ictimai təhlükəsizliyi təmin edir, qarşıya qoyulmuş istənilən tapşırığı icra etməyə hazırdır. Hərbi hissənin tapşırıqları Daxili Qoşunların digər hərbi hissələrinin tapşırıqlarından bir qədər fərqlidir. Belə ki, yerləşdiyi rayon döyüş bölgəsinə yaxın olduğundan, bölgədə ictimai asayişin və sabitliyin qorunub-saxlanılması ilə yanaşı, əsas tapşırıq hissənin və bölmələrin döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılmasına ciddi fikir verməkdir. Həmçinin, həvalə olunmuş və qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının keyfiyyətlə yerinə yetirilməsi də əsas vəzifələrdəndir. Bu sadalanan tapşırıqların qısa vaxt ərzində və yüksək səviyyədə yerinə yetirilməsi isə, öz növbəsində, şəxsi heyətin hərbi bilik səviyyəsinin və bacarıqlarının artırılmasından birbaşa asılıdır.





**Əminliklə demək olar ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğı şəxsi heyətin məsuliyyətini artırır, onları nümunəvi xidmətləri ilə fərqlənməyə həvəsləndirir.**

### "VAŞAQ"LAR XİDMƏTDƏ DÖZÜMLÜLÜK NÜMAYİŞ ETDİRİRLƏR

Xüsusi təyinatlı dəstənin əsas vəzifələri istər silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istər ictimai təhlükəsizliyin pozulması, istərsə də təbii fəlakətlər zamanı qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaqdır. Bu isə hər bir xüsusi təyinatlıdan, ilk növbədə, yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və "dəmir" iradə tələb edir. Bu mənada hərbi hissənin "VAŞAQ" şərti adı verilmiş xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirirlər.

İlin istənilən fəslində, müxtəlif relyefə məxsus ərazilərdə adına uyğun çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları hissənin digər bölmələrinin müvafiq tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar, praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq göstərərək, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gəlirlər. Qeyd edim ki, dəstə bu dəfə də ənənəsinə sadiq qalaraq, ötən ilin yekun yoxlamasını müvəffəqiyyətlə başa vurub, hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.



Dəstə komandiri polkovnik-leytenant Fariz Məmmədov bildirdi ki, şəxsi heyətin döyüş təlimi Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlədesant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji tərbiyəsi, düzgün dünyagörüşlərinin formalaşması da əsas məqamlardandır.

Onun sözlərinə görə, məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığı xüsusilə diqqətdə saxlanılır. Şəxsi heyətin real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir.

"Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək keçirilən məşğələ və təlimlərin keyfiyyətinin artırılması məhz döyüş hazırlığının yüksəldilməsinə xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin nizam-intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır" – deyə, fikirlərini bildirən dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Fizuli Şahrəliyev bu baxımdan bəzi məqamlara aydınlıq gətirdi: "Ümumilikdə götürdükdə, dəstə kiçik bir hərbi kollektivdir. Dəstənin qarşısında qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi isə hərbi qulluqçuların birgə fəaliyyətindən asılıdır. Şəxsi heyətin hərbi intizamının möhkəmləndirilməsi, hərbi kollektivdə dostluq və yoldaşlıq məfhumunun aşılanması, eləcə də mənəvi-psixoloji durumun düzgün məcraya yönləndirilməsi ümumi məqsədə çatmanın əsas meyarı olmaqla yanaşı, tərbiyə işinin qarşısında duran vacib vəzifələrdəndir".





Mayor F.Şahrəliyev şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan yarımqrup komandirləri gizir Dəyanət Allahyarovun və baş çavuş Rizvan Məhərovun, pulemyotçu baş çavuş Cavid Qəhrəmanovun və atıcı-yazar çavuş Tural Süleymanovun adlarını çəkdi.

### "YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI, MÖHKƏM HƏRBİ İNTİZAM BAŞLICA HƏDƏFİMİZDİR"

Hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də polkovnik-leytenant Varis Nəcəfovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir.






Tabeliyində olan bölmələrin ümumi fəaliyyətini təhlil edən komandir dəstənin qarşısına qoyulmuş vəzifələr barədə danışarkən bildirdi ki, şəxsi heyətlə keçirilən bütün təlimlər, məşğələlər, eləcə də aparılan tərbiyə işi yalnız bir məqsədə - hərbi qulluqçuların verilmiş tapşırıqların icrasına hər zaman hazır olmasına xidmət edir: "Şəxsi heyətin öz vəzifələrini yüksək səviyyədə və nümunəvi yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Dəstə daim döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlamaqla, tapşırılmış vəzifələri yerinə yetirməyə hər zaman hazır olmalıdır".

Ümumiyyətlə, xüsusi əməliyyatlara cəlb olunan bölmələrin yüksək döyüş hazırlığına malik olmasında möhkəm hərbi intizamın və kollektivdə qarşılıqlı sağlam münasibətlərin mühüm rol oynadığını nəzərimizə çatdıran polkovnik-leytenant V.Nəcəfov bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Ramin Ələsgərovun da əməyini yüksək qiymətləndirdi.

Mayor Ramin Ələsgərov dəstədə keçirilən söhbət, mühazirə, viktorina, disput, mövzu axşamı və s. kimi çoxşaxəli tərbiyə işi tədbirlərinin şəxsi heyətin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə və hərbi intizamının möhkəmləndirilməsinə böyük təkan verdiyini diqqətə çatdırdı.

O, həmçinin, təlim proqramlarında nəzərdə tutulmuş tədbirlərlə yanaşı, Daxili Qoşunlar komandanlığının müvafiq tapşırıqlarına uyğun olaraq, qrup və yarımqrup komandirlərinin hazırlıqlarına da xüsusi diqqət yetirdiklərini vurğuladı.

Dəstə komandirinin müavini təlim və məşğələlərdə nümunəvi xidmətilə fərqlənən, öz işinə məsuliyyətlə yanaşan hərbi qulluqçuların adlarını da qeyd etməyi unutmadı. Belə ki, baş leytenantlar Sərvan Həmidov, Kamran Ağayev, Elvin Dəyanov, gizir Rüfət Əliyev, baş çavuşlar Xəyal İsmayılov və Nicat Əlizadə, kiçik çavuş Elçin Alızadə fərqlənən hərbi qulluqçulardandır.

### KOMENDANT BÖLÜYÜ

Başlıca vəzifəsi Döyüş Bayrağının və hərbi şəhərciyin etibarlı mühafizəsi və müdafiəsini təşkil etmək olan komendant bölüyündə xidmət edən hərbi qulluqçular tərəfindən qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün təşkil edilməsi olduqca vacibdir. Etibarlı mühafizənin təşkil olunması isə qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və xidmətin nümunəvi aparılmasına birbaşa təsir edən möhkəm hərbi intizamın olmasından asılıdır.

Bölük komandiri baş leytenant Fuad İsmayılov bildirdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. O, xidmətin aparılmasında vacib olan şərtləri də diqqətə çatdıraraq söylədi ki, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olması olduqca vacibdir. Postda xidmət aparan zaman saatdarın ayıq-sayıqlıq, çeviklik, cəsarət nümayiş etdirməsi mühüm əhəmiyyət kəsb edən faktorlardandır. Onun sözlərinə görə, yalnız bu halda hərbi hissənin etibarlı mühafizəsindən danışmaq olar.

O, bölüyün nümunəvi hərbi qulluqçuları kimi taqım komandiri leytenant Aqşin Mütəllibovun, manqa komandirlərindən çavuş Rəşid Niyazlı və çavuş İlham Nəzərəliyevin, əsgərlərdən baş əsgər Cavid Bünyətovun, əsgərlər Eldar Ağayev və Cavad Əmirovun adlarını çəkərək, onların yoldaşlarına nümunə ola biləcəklərini bildirdi.

Əminliklə demək olar ki, hərbi hissənin komendant bölüyünün şəxsi heyəti hər zaman nümunəvi xidməti, sayıqlığı ilə seçilir və qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hazırdır.

### TAPŞIRIQLARI KEYFİYYƏTLƏ YERİNƏ YETİRMƏK BACARIĞI...

Məlumdur ki, Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan, hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın şəxsi heyəti yüksək döyüş hazırlığı və nizam-intizamı ilə seçilir. Peşə vərdişlərinin artırılması məqsədilə şəxsi heyət mütəmadi olaraq məşğələlərə cəlb olunur. Keyfiyyətlə keçirilən məşğələlərin nəticəsidir ki, batareya qarşıya qoyulan vacib, eyni zamanda, məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malikdir. Bu işdə batareyanın təcrübəli komandiri kapitan Yaqub Abbasovun zəhməti danılmazdır. O, 2013-cü ildən həmin vəzifəni məsuliyyətlə icra edir.





Minaatan batareyanın vəzifələri barədə danışan kapitan Y.Abbasov bildirdi ki, əsas tapşırıqlar döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləmək üçün motoatıcı bölmələri atəş dəstəyi ilə təmin etməkdir. Həmçinin, düşmənin komanda-düşərgə məntəqəsini, kimyəvi basqın vasitələrini, artilleriyasını, tanklarını, düzünə artilleriya ilə vurulması mümkün olmayan üstüörtülü sığınacaqlarda yerləşən canlı qüvvəsini məhv etmək, xüsusi əməliyyatların keçirilməsi zamanı silahlı cinayətkarların atəş vasitələrini, istehkam qurğularını dağıtmaq, işıqverməni uzaqdan təmin etmək, eləcə də hədəfdə olan canlı qüvvəni tələfata uğratmaqdan ibarətdir. Eyni zamanda, düşmənin önünü, gerisini və dərinliklərini iriçaplı silahlarla atəşə tutan batareya hücuma keçən bölmələrin sərbəst irəliləməsinə əlverişli şərait yaradır.

Batareya komandiri söylədi ki, qarşıya qoyulmuş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi hər bir hərbi qulluqçudan böyük məsuliyyət tələb edir: "Məsələn, düşmənin qüvvəsini görmədən vurmaq tapşırığını yerinə yetirərkən riyazi hesablamalar əsas götürülür. Lakin məlumatlar dəqiq və düzgün çatdırılmalıdır".

Kapitan Y.Abbasov hərbi qulluqçuların peşə vərdişlərinin artırılması məqsədilə görülən işlərdən də danışdı. O, şəxsi heyətin mütəmadi olaraq praktik məşğələlərə cəlb olunduğunu dedi: "Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində "batareya hücumda" və "batareya müdafiədə" mövzularında təlimlər keçirilir, həmçinin, minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən, təhlükəsizlik qaydaları öyrədilir".

Batareya komandiri funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan batareyanın baş zabiti baş leytenant Ələkbər Cəfərovun, taqım komandirinin müavini baş çavuş Rafiq Abbasovun, əsgərlərdən Rauf Əliyevin və Sahib Siracovun adlarını çəkərək, əlavə etdi ki, komandiri olduğu batareya yüksək döyüş hazırlığına malikdir və istənilən zaman qarşısına qoyulan tapşırıqların icrasına hazırdır.

**baş leytenant**
**Xədicə Hacızadə**

4_Layout 1 14.04.2020 10:46 Page 1



*Nümunəvi xidmət*

# HƏR BİR TƏRBİYƏÇİ ZABİT ÖZLÜYÜNDƏ NÜMUNƏ OLMAĞI BACARMALIDIR

**Hərbi qulluqçu dedikdə Vətəninə, torpağına bağlı olan, onun yolunda hər an canından keçməyə hazır olan vətəndaş gəlir göz önünə. Sözsüz ki, hər bir insanda elə, obaya bağlılıq, Vətənə sevgi bu və ya digər şəkildə formalaşır. Lakin həyatını hərbi xidmətə bağlayan, ölkəsinin ərazi bütövlüyünü təmin etmək üçün əldə silah müsəlləh əsgər kimi xidmət aparan hər bir hərbi qulluqçu Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. O, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət etməyə, hərbi andı yerinə yetirməyə borcludur.**



Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin komendant bölüyündə xidmət edən leytenant Pənah Quliyev bu fikirləri dərindən dərk edir, xidməti-vəzifə borcunu hərbi nizamnamələrdə əks olunan tələblərə uyğun həyata keçirir. O, 1996-cı il avqustun 27-də Füzuli rayonunun Aşağı Kürdmahmudlu kəndində dünyaya göz açıb. Orta təhsilini doğulduğu kənddə alıb. 2014-cü ildə Daxili Qoşunların Ali Hərbi Məktəbinə qəbul olunub. 2018-ci ildə təhsilini başa vuraraq ilkin zabit rütbəsini alan leytenant P.Quliyev 16073 saylı hərbi hissədə təminat bölüyünün təminat taqımının komandiri vəzifəsinə təyin olunub. Hazırda komendant bölüyü komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsindədir.

Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan hərbi qulluqçu üzərinə düşən vəzifələrin icrasına məsuliyyətlə yanaşır. Bölükdə nizam-intizamın, daxili qayda-qanunun yaradılmasında böyük əməyi var. Tərbiyəçi zabit kimi qarşısında duran vəzifələrin öhdəsindən layiqincə gəlməyi bacaran leytenant P.Quliyev döyüş xidmətinə cəlb olunan hərbi qulluqçuların seçiminə xüsusi diqqətlə yanaşıldığını nəzərimizə çatdırıdı. Qeyd etdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələbləri əsasında aparılır, həvalə olunmuş hərbi obyektlərin etibarlı mühafizəsinin təşkili üçün hər bir hərbi qulluqçu nizamnamənin tələblərinə ciddi əməl edir. Onların hərbi bilik və bacarıqlarının qənaətbəxş, mənəvi-psixoloji durumlarının yüksək səviyyədə olmasına diqqət yetirilir.

Harda olmasından asılı olmayaraq, Vətənə, dövlətə xidmətin şərəfli olduğunu deyən leytenant P.Quliyev hər bir tərbiyəçi zabitin özlüyündə şəxsi heyətə nümunə olmasının vacibliyini vurğulayaraq, bundan sonra da qarşıya qoyulan tapşırıqların icrasında əzmkarlıq göstərəcəyinə söz verdi.

**baş leytenant**
**Nigar Ağayeva**

# XİDMƏTİ FƏALİYYƏTDƏ PEŞƏKAR HAZIRLIQ ÖNƏMLİ CƏHƏTDİR

**Leytenant Əliheydər Rzazadə Daxili Qoşunların Dayaq Rabitə Qovşağında nümunəvi xidmət edən hərbi qulluqçulardan biridir. O, 1996-cı il dekabrın 17-də Lənkəran rayonunun Boladi kəndində doğulub. Orta təhsilini Yevlax şəhərində yerləşən 9 nömrəli tam orta məktəbdə alıb. 2014-cü ildə orta təhsilini başa vurub. 2014-2018-ci illərdə Daxili Qoşunların Ali Hərbi Məktəbində ali təhsil alıb. 2018-ci ildən Daxili Qoşunların Dayaq Rabitə Qovşağında taqım komandiri vəzifəsində xidmət edir.**



O, Türkiyə Respublikasının paytaxtı Ankara şəhərində Türkiyə Silahlı Qüvvələrinin Quru Qoşunlarının MEBS tədris mərkəzində təşkil olunan "Rabitə üzrə zabit təməl kursu"nda iştirak edib. Təlim kursuna Türkiyə Silahlı Qüvvələrinin zabitləri ilə yanaşı, Azərbaycan, Çin Xalq Respublikası, Əfqanıstan, Qırğızıstan, Albaniya, Bosniya və Herseqovina və digər ölkələrin hərbi qulluqçuları da cəlb olunublar. Nəzəri və praktiki məşğələlər formatında keçirilən təlim kursunda müasir dövr üçün hərbi rabitənin xüsusiyyətlərinə geniş diqqət yetirilib. Tədris mərkəzinin təlimatçıları tərəfindən müxtəlif rabitə vasitələrinə texniki qulluğun göstərilməsi, rabitə taktikası, güc mənbələri, şəbəkə təhlükəsizliyi, server sistemlərinin idarə olunması, çoxkanallı və təkkanallı rabitə avadanlıqlarının istifadəsi, saxlanılması qaydaları və sair mövzularda keçirilən məşğələlər iştirakçıların bu sahədə nəzəri biliklərinin artırılmasına, habelə praktiki hazırlıqlarının təkmilləşdirilməsinə yönəlib. Təlim kursunda müxtəlif ölkələri təmsil edən iştirakçılar arasında rabitənin təşkili məqamları ilə bağlı faydalı təcrübə mübadiləsi də aparılıb. Həmin təlim kursunu müvəffəqiyyətlə başa vuran hərbi qulluqçumuz ikinci yerə layiq görülüb.

Taqım komandiri kimi tabeliyində olan hərbi qulluqçulara qarşı tələbkar olan, eyni zamanda onlara qayğı ilə yanaşan leytenant Ə.Rzazadə təhkim olunmuş rabitə və AİS vasitələrinin düzgün istismar olunmasını, onlara vaxtlı-vaxtında profilaktik texniki qulluğun göstərilməsini, qorunub-saxlanılmasını, eləcə də lazım gəldikdə təmir işlərinin aparılmasını təmin edir. O, həmçinin, xidməti fəaliyyət zamanı istifadə olunan naqil və radio vasitələrinin texniki tələblərə uyğun işlək vəziyyətdə saxlanılmasına da cavabdehdir. Bundan əlavə, şəxsi heyətə mütəmadi olaraq xüsusi hazırlıq üzrə təlim proqramlarının keçilməsi təşkil olunur. İxtisas, rabitə, atış və fiziki hazırlıq üzrə nəzəri və praktiki məşğələlər keçirilməsinə xüsusi önəm verilir. Bu da şəxsi heyətin peşəkarlığının artırılmasına xidmət edir. Leytenant Ə.Rzazadə məşğələlər zamanı fərqlənən hərbi qulluqçulardan gizirlər Ülvi Babayev və Nail Tarverdizadənin, baş çavuş Davud Bayramlının da adlarını çəkərək, onları nizam-intizamlı hərbi qulluqçular kimi xarakterizə etdi.

**baş leytenant**
**Xədicə Hacızadə**

*Nümunəvi xidmət*

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI VƏ MÖHKƏM HƏRBİ İNTİZAM XİDMƏTİMİZİN ƏSASIDIR





**Daxili Qoşunların sıralarında nizam-intizamı və nümunəvi xidmətilə seçilən hərbi qulluqçular barədə, demək olar ki, "Əsgər" qəzetinin hər sayında məlumat veririk. Bu buraxılışımızda da onlardan ikisini sizlərə təqdim edirik.**

Çavuş Nurlan Qəribov hərbçi nüfuzunu qoruyan, müsbət keyfiyyətləri ilə yoldaşlarına nümunə ola biləcək hərbi qulluqçulardandır. O, 1996-cı il avqust ayının 8-də Şəki rayonunun Baş Layısqı kəndində anadan olub. 2014-cü ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların əvvəlcə 25031, daha sonra 12565 saylı hərbi hissələrində xidmət edib. 2016-cı ilin aprel ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunda xidmətini davam etdirir. Hazırda xüsusi təyinatlı qrupda atıcı vəzifəsindədir.

Tabor komandiri polkovnik Elçin Məmmədov deyir ki, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və nizam-intizamın möhkəmləndirilməsi üçün hər gün məşğələlər keçirilir: "Çavuş N.Qəribov məşğələlər zamanı fəallıq göstərərək hərbi peşənin sirlərinə dərindən yiyələnməyə səy göstərir, komandirlərdən öyrəndiklərini hərbi xidmətə yeni qəbul olunmuş yoldaşlarına da öyrətməyə çalışır. Ona təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətlərini bilir, daima döyüşə hazır, saz vəziyyətdə saxlanılmasını təmin edir".

Funksional vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçu verilən tapşırıqları da vaxtında və düzgün icra edir.

Hərbi hissənin digər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nəriman Məmmədov 1992-ci il mayın 28-də Bərdə rayonunun Əmirli kəndində anadan olub. 2009-cu ildə Bərdə rayonu Rəhman Abbasov adına Əmirli kənd orta məktəbini bitirib. 2010-2012-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2016-cı ilin avqust ayından Daxili Qoşunların sıralarında hərbi xidmətini davam etdirir. Hazırda 25033 saylı hərbi hissənin AYPT-nin xüsusi təyinatlı qrupunun idarə heyətində sürücüdür. Qısa müddət ərzində xidmət etməsinə baxmayaraq, həm hissə komandanlığının, həm də yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur.

Polkovnik E.Məmmədov qeyd edir ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər N.Məmmədov ona təhkim olunmuş nəqliyyat vasitəsinin sazlığını hər gün yoxlayır, xırda nasazlıqlar aşkar olunduqda dərhal aradan qaldırılması üçün tədbirlər görür. O, texnikanın xüsusiyyətlərinə yaxşı bələddir, təhlükəsizlik və yol-nəqliyyat qaydalarını bilir, onlara tam olaraq riayət edir.

Tabor komandiri sonda onu da vurğuladı ki, sıralarımızda çavuş N.Qəribov və əsgər N.Məmmədov kimi hərbi qulluqçuların olması qürurvericidir.

**25033 saylı hərbi hissənin**
**ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR

*-YENİLİKLƏR -*

### Avstraliya "Guardian" sinfinə məxsus 6-cı patrul gəmisini sifarişçiyə təhvil verib

Avstraliya hökuməti Ficiyə bir ədəd "Guardian" sinfinə məxsus patrul gəmisi təhvil verib. Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, bu, Avstraliyanın qeyd olunan sinfə məxsus 6-cı gəmisidir. Məlumata görə, Sakit okeanın 12 ada dövləti və Timor-Leşte də daxil olmaqla, ümumilikdə, bu sinfə məxsus 21 gəmi sifariş verib.



### Rusiyanın Cənub Hərbi Dairəsinə yeni özüyeriyən haubitsalar təhvil verilib



Rusiyanın Cənub Hərbi Dairəsinə iki batereya 152 millimetr kalibrli yeni "Msta-SM2" özüyeriyən haubitsalar təhvil verilib. Ordu.az xəbər verir ki, bu barədə Rusiyanın Cənub Hərbi Dairəsinin mətbuat xidməti məlumat yayıb.

Məlumata görə, bu artilleriya sistemi əvvəlkilərdən dizayn yenilikləri ilə xeyli fərqlənir. Həmçinin, sistem olduqca yüksək atəş tempinə malikdir. Belə ki, haubitsa dəqiqədə 10-dan çox atəş aça bilir.

### "Otaman" piyada döyüş maşınlarının ilkin sınaqları tamamlanıb

Ukraynanın "NGO Practika" şirkəti tərəfindən istehsal olunan "Otaman" piyada döyüş maşınları sınaqlarının ilkin mərhələsi tamamlanıb. Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, döyüş maşını NATO standartlı mina əleyhinə zirehlə təchiz edilib. Bildirilir ki, döyüş maşınları ilk dəfə Hindistanda "Defexpo 2016"da, daha sonra 2017-ci ildə Kiyevdə keçirilən Silah və Təhlükəsizlik Sərgisində nümayiş olunub.



Zirehli döyüş maşını BTR-60 zirehli personal daşıyıcısının əsasında hazırlanıb. 3 ekipaj üzvü və 10 personalı daşıya bilir.

*Həkim məsləhəti*

# QIZARDILMIŞ YEMƏKLƏRDƏN MÜMKÜN QƏDƏR UZAQ OLMAQ LAZIMDIR

Gündəlik qida rasionumuzda qızardılmış yeməklər üstünlük təşkil edir. Lakin həmin qidaların tərkibində yüksək kalori və çox miqdarda yağ olur. Bu da II tip şəkərli diabet və piylənməyə, ürək-damar sisteminin patologiyasına şərait yaradır.

Həkim-dietoloq Ləman Süleymanova bu barədə AZƏRTAC-a deyib: "Qızartma zamanı qidanın tərkibində olan vitamin və mikroelementlər parçalanır, nəticədə konserogenlər, sərbəst radikallar və transyağlar əmələ gəlir. Həmin maddələr isə orqanizm üçün çox ziyanlıdır və bir çox xəstəliyin, o cümlədən, xərçəngin əmələ gəlməsinə səbəb olur".

Onun verdiyi məlumata görə, qızartma zamanı az miqdarda kərə yağından istifadə etmək lazımdır. Bir dəfə yemək hazırlanmış yağda ikinci dəfə heç nə qızardılmamalıdır. Duru yağlara isə qızartmalarda deyil, salatların tərkibində yer vermək məsləhətdir.



Həkim-dietoloqun fikrincə, qızardılmış yeməklər əvəzinə sobada pörtlədilmiş qidalardan istifadə etmək daha yaxşıdır, çünki həmin proses zamanı onun tərkibindəki elementlər parçalanmağa daha az məruz qalırlar: "Xolesterin onunla reaksiyaya girən maddələrdən asılı olaraq zərərli və faydalı ola bilər. Qızardılmış qidaları qəbul edərkən zərərli xolesterin artır. Ona görə də həmin qidalardan mümkün qədər uzaq olmaq məsləhətdir. Tərəvəzlər vitaminlərlə zəngin olduğu üçün onları tam qızartmaq deyil, qaynatmaq lazımdır".

## Allah rəhmət eləsin

16077 saylı hərbi hissənin şəxsi heyəti polkovnik-leytenant Yunis Qasımova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin şəxsi heyəti baş gizir Etibar İsmayılova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000